AZERBAIJAN
# Olimpiya dünyası
www.olimpiyadunyası.com
www.olimpnews.az
Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti
№ 7 (1509), 22 - 28 fevral 2022-ci il
Qəzet 2001-ci ildən çıxır.

## Pekin-2022 Qış Olimpiya Oyunları başa çatıb

Çinin paytaxtı Pekində keçirilən XXIV Qış Olimpiya Oyunları başa çatıb. Yarışın bağlanış mərasimi Pekin Milli Stadionunda yalnız yerli azarkeşlərin iştirakı ilə təşkil olunub. İlk olaraq Çin bayrağı meydanın mərkəzinə gətirilib və dövlət himni səsləndirilib. Müxtəlif kompozisiyaların ardından iştirakçı ölkələrin bayraqdarları Stadiondakı Olimpiya bayrağı endirilərək Milan və Kortina-d Ampetso şəhərlərinin merlərinə təqdim edilib.

Rəsmi çıxışlardan sonra isə Beynəlxalq Olimpiya Komitəsinin (IOC) prezidenti Tomas Bax Pekin Olimpiadasını bağlı elan edib. Ardınca isə Olimpiya məşəli söndürülüb.



almaniyalı məşhur bəstəkar Lüdviq van Bethovenin “Ode to joy” simfoniyasının sədaları altında arenaya daxil olublar. Tamaşaçılar önündən olimpiadanın vətəni Yunanıstan birinci, təşkilatçı ölkə Çin isə sonuncu keçib. Azərbaycan nümayəndə heyəti Pekini tərk etdiyindən, ölkə bayrağını çinli könüllü Li Yuanqzou daşıyıb.

Bundan sonra kişilər və qadınlar arasında müvafiq olaraq 50 km və 30 km məsafəyə xizək yarışları üzrə qaliblər mükafatlandırılıb. Ardınca 2026-cı ildə İtaliyanın Milan və Kortina-d Ampetso şəhərlərində təşkil olunacaq XXV Qış Olimpiya Oyunlarının rəsmi təqdimatı olub.

Qeyd edək ki, Pekin-2022 Qış Olimpiya Oyunlarında 91 ölkədən ümumilikdə 3 000-dək idmançı qüvvəsini sınayıb. Yarışda 15 idman növü üzrə 109 dəst medal öz sahibini tapıb. Norveç medal sayında və əyarında bütün ölkələri qabaqlayıb. Skandinaviya təmsilçisi Oyunları 37 medalla (16 qızıl, 8 gümüş, 13 bürünc) başa vurub.

Qeyd edək ki, Pekin Olimpiadasında Azərbaycanı bir idman növü üzrə 2 idmançı təmsil edib. Yarışda fiqurlu konkisürənlər - Vladimir Litvintsev və Yekaterina Ryabova qüvvəsini sınayıb. Təmsilçilərimizdən V.Litvintsev 18-ci, Y.Ryabova isə 15-ci yeri tutub.




## Azərbaycan və Çin arasında idman sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov Pekinə səfəri zamanı Çinin idman nazirinin müavini, bu ölkənin Olimpiya Komitəsinin vitse-prezidenti Li Yunqçuan ilə görüşüb. Görüşdə iki ölkə arasında idman sahəsində əməkdaşlıq və Qış Olimpiya Oyunlarının təşkili məsələləri müzakirə olunub.

Müzakirələrdə Pekin-2022-də Olimpiya komandasının şef de-missionu Anar Bağırov da iştirak edib.

Fərid Qayıbov üç günlük səfər çərçivəsində idmanın müxtəlif növləri üzrə yarışları da izləyib. Olimpiadada Azərbaycanı təmsil edən fiqurlu konkisürənlər Vladimir Litvintsev və Yekaterina Ryabova ilə görüşüb.




## *Pekində skandinaviyalılar bir daha favorit olduğunu təsdiqlədilər*

Səh. 4-5

## Azərbaycan təmsilçisi Yekaterina Ryabova Pekin-2022-ni 15-ci sırada başa vurdu

***Azərbaycanı Pekin-2022 Qış Olimpiya Oyunlarında təmsil edən Yekaterina Ryabova qadın fiqurlu konkisürənlərin fərdi yarışlarının final mərhələsində sərbəst proqramda çıxış edib.***

Təmsilçimiz sərbəst proqramda 2-ci qrupda mübarizə aparıb. Hakimlər onun çıxışını 118,15 xalla qiymətləndiriblər. Yekaterina Ryabova fevralın 15-də qadın idmançıların qısa proqramında 61,82 xal qazanmışdı. Beləliklə, atletimiz Pekin-2022-dəki mübarizəsini 179,97 xalla başa çatdırıb. İdmançımız bu nəticə ilə yarışı 15-ci sırada başa vurub.

Yarışın qalibi adını isə iki proqramın cəmində 255,95 xal toplayan Rusiya Olimpiya Komitəsinin (ROK) təmsilçisi Anna Şerbakova qazanıb. İkinci yeri Rusiya Olimpiya Komitəsinin digər idmançısı Aleksandra Trusova (251,73 xal), üçüncü yeri isə yaponiyalı Kaori Sakamoto (233,13 xal) tutub. Digər ROK təmsilçisi Kamila Valiyeva isə 224,09 xalla 4-cü olub.



### *Pekin-2022 XXIV Qış Olimpiya Oyunlarında medal qazanan ölkələr*

| | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Norveç | 16 | 8 | 13 | 37 |
| 2. Almaniya | 12 | 10 | 5 | 27 |
| 3. Çin | 9 | 4 | 2 | 15 |
| 4. ABŞ | 8 | 10 | 7 | 25 |
| 5. İsveç | 8 | 5 | 5 | 18 |
| 6. Niderland | 8 | 5 | 4 | 17 |
| 7. Avstriya | 7 | 7 | 4 | 18 |
| 8. İsveçrə | 7 | 2 | 5 | 14 |
| 9. ROK | 6 | 12 | 14 | 32 |
| 10. Fransa | 5 | 7 | 2 | 14 |
| 11. Kanada | 4 | 8 | 14 | 26 |
| 12. Yaponiya | 3 | 6 | 9 | 18 |
| 13. İtaliya | 2 | 7 | 8 | 17 |
| 14. C.Koreya | 2 | 5 | 2 | 9 |
| 15. Sloveniya | 2 | 3 | 2 | 7 |
| 16. Finlandiya | 2 | 2 | 4 | 8 |
| 17. Y.Zelandiya | 2 | 1 | 0 | 3 |
| 18. Avstraliya | 1 | 2 | 1 | 4 |
| 19. B.Britaniya | 1 | 1 | 0 | 2 |
| 20. Macarıstan | 1 | 0 | 2 | 3 |
| 21-23. Belçika | 1 | 0 | 1 | 2 |
| 21-23. Çexiya | 1 | 0 | 1 | 2 |
| 21-23. Slovakiya | 1 | 0 | 1 | 2 |
| 24. Belarus | 0 | 2 | 0 | 2 |
| 25-26. İspaniya | 0 | 1 | 0 | 1 |
| 25-26. Ukrayna | 0 | 1 | 0 | 1 |
| 27-29. Estoniya | 0 | 0 | 1 | 1 |
| 27-29. Latviya | 0 | 0 | 1 | 1 |
| 27-29. Polşa | 0 | 0 | 1 | 1 |




### *Qış Paralimpiya Oyunlarında ilk dəfə Azərbaycan bayrağı dalğalanacaq*

Səh. 2

### Azərbaycan Ağırlıqqaldırma Federasiyasına yeni prezident seçilib

Səh. 2




## Azərbaycan Ağırlıqqaldırma Federasiyasına yeni prezident seçilib

Fevralın 19-da Gənclər və İdman Nazirliyində Azərbaycan Ağırlıqqaldırma Federasiyasının ümumi yığıncağı keçirilib. Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə Azərbaycan Ağırlıqqaldırma Federasiyasının son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi dinlənilib.

Federasiyanın üzvlərindən Vahid Nəzərov, Elxan Süleymanov, Azad Mustafayev hesabat dövründəki fəaliyyətlə bağlı iradlarını bildirib, təkliflərini səsləndiriblər.

Sonra federasiyanın nizamnaməsinə əlavə və dəyişikliklər edilib.

Daha sonra federasiya rəhbərliyinə seçkilər keçirilib. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov federasiyanın yeni prezidenti seçilib.

Yığıncaqda, həmçinin Səbuhi Mehdizadə federasiyanın vitse-prezidenti, Anar Hüseynov, Nihad Məmmədli, Asif Məmmədov və Aydın Ağaəliyev idarə heyətinin üzvü seçiliblər.

Federasiyanın yeni prezidenti İnam Kərimov çıxış edərək qurumun bundan sonrakı fəaliyyəti və qarşıdakı planları barədə danışıb.

Sonda Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək federasiyanın yeni rəhbərliyinə uğurlar arzulayıb.

## Nazim Babayev Fransada üçüncü oldu

Fransada atletika üzrə Meeting De L'Eure yarışı (World Indoor Tour Silver Level) keçirilib. Turnirdə ölkəmizi üçtəkanla tullanma yarışlarında Nazim Babayev təmsil edib. Atletimiz Fransada uğurla çıxış edərək bürünc medala sahib çıxıb. O, yarışda 16.27 metr nəticə göstərib.




## Qış Paralimpiya Oyunlarında ilk dəfə Azərbaycan bayrağı dalğalanacaq

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) qış idman növləri üzrə milli komandasının üzvü Azərbaycan Paralimpiya tarixində ilk dəfə olaraq Qış Paralimpiya Oyunlarında iştirak edəcək. Paralimpiya komandasının üzvü Mehman Ramazanzadə Pekin-2022 XIII Qış Paralimpiya Oyunlarında mabarizə aparacaq. M.Ramazanzadə kross-kantri növünün sprint kateqoriyasında çıxış edəcək. İdmançımız mübarizəyə martın 9-da qoşulacaq.

Artıq Paralimpiya Oyunlarında iştirak edəcək Azərbaycan komandasının şef-de missionu və bayraqdarı da müəyyənləşib. Azərbaycan Milli Paralimpiya Komitəsinin qərarına əsasən, Rauf Mürsəlov Azərbaycan komandasının şef-de-missionu təyin edilib. İdmançımız Mehman Ramazanzadə isə açılış mərasimində millimizin bayraqdarı olacaq.



Qeyd edək ki, XIII Qış Paralimpiya Oyunları martın 4-13-də Çin Xalq Respublikasının paytaxtı Pekində keçiriləcək. Oyunların açılış mərasimi martın 4-də Pekin Milli stadionunda olacaq.

## "Böyük dəbilqə" turnirində uğurlu nəticə

İsrailin Təl-Əviv şəhərində cüdo üzrə "Böyük dəbilqə" turniri keçirilib. 34 ölkədən 298 (165 kişi, 133 qadın) idmançının iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar. Komandamız turnirdə baş məşqçi Mövlud Mirəliyev və böyük məşqçi Elçin İsmayılovun rəhbərliyi altında 9 cüdoçu ilə təmsil olunub. Cüdoçularımız yarışda uğurla çıxış edərək 2 qızıl, 1 gümüş, 1 bürünc medala layiq görülüblər. Qızıl medalları komandamızın aktivinə Hidayət Heydərov (73 kq) və Məmmədəli Mehdiyev (90 kq) yazdırıblar. Gümüş medala Yaşar Nəcəfov (66 kq), bürünc mükafata isə Zelim Kotsoyev (100 kq) sahib çıxıb.

Bununla da Azərbaycan komandası 34 ölkə arasında ümumi hesabda ikinci yeri tutub. Birinci yerdə 4 qızıl, 4 bürünc medalla Fransa, üçüncü pillədə isə 2 qızıl, 1 gümüş medalla Gürcüstan komandaları qərarlaşıb.



Komandamız kişilərin mübarizəsində birinci yerə sahib olub. İkinci yeri 2 qızıl medalla Gürcüstan, üçüncü yeri isə 1 qızıl, 2 bürünc medalla İsrail komandaları tutub.

## Akrobatika gimnastikası üzrə 27-ci Azərbaycan birinciliyi və Bakı çempionatı keçiriləcək

Fevralın 24-25-də Milli Gimnastika Arenasında akrobatika gimnastikası üzrə 27-ci Azərbaycan birinciliyi və Bakı çempionatı keçiriləcək. Yarışda "Ocaq Sport" klubu, Bakı Gimnastika Məktəbi, "Neftçi" idman klubu, Sumqayıt Olimpiya İdman Kompleksi və Nizami rayonu 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbindən 41 idmançı iştirak edəcək.

İki günlük yarışda qadın, kişi, qarışıq cütlüklər və qadın qrupları medallar uğrunda çoxnövçülükdə mübarizə aparacaqlar.

Yarışların Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi icazəsi ilə ölkəmizdə tətbiq edilən mövcud karantin qaydalarına və sanitar-epidemioloji tələblərə uyğun olaraq və tamaşaçı iştirakı olmadan keçiriləcək.

* * *

Bakıda keçiriləcək akrobatika gimnastikası üzrə 28-ci dünya çempionatında iştirak edəcək Azərbaycan millisinin heyəti açıqlanıb. Yarışda ölkəmizi Daniel Abbasov, Murad Rəfiyev, Sabir Ağayev, Ağasəf Rəhimov, Mehriban Salamova və Raziyə Seyidli təmsil edəcəklər.

Dünya çempionatı martın 10-dan 13-dək Milli Gimnastika Arenasında keçiriləcək.

## Olimpiya mükafatçımız Premyer Liqa turnirində birinci yerə sahib çıxdı

Birləşmiş Ərəb Əmirliklərinin Fujeira şəhərində Karate1 Premyer Liqa turnirinə yekun vurulub. Yarışa 9 idmançı ilə yollanan yığmamız 1 qızıl, 1 gümüş və 1 bürünc medala sahib çıxıb. Komandamızın heyətində İrina Zaretska turnirin qalibi olub. 68 kq çəki dərəcəsində mübarizə aparan idmançımız finalda italiyalı Silvia Semeraronu məğlub edib. İ.Zaretskadan fərqli, Tural Ağalarzadə (67 kq) finalda məğlubiyyətə üzülüb. O, həlledici görüşdə qazaxıstanlı Didar Amrali ilə duelədən məğlub ayrılıb və gümüş medalla kifayətlənib. Millimizə digər mükafatı Turqut Həsənov (84 kq) qazandırıb. O, üçüncü yer uğrunda döyüşdə Robin Rettenbaherə qalib gəlməklə, fəxri kürsünün üçüncü pilləsinə qalxıb.



## Güləşçilərimiz Bolqarıstan sınağını 9 medalla başa vurdular



Bolqarıstanın Veliko Tırnovo şəhərində güləş üzrə Dan Kolov - Nikola Petrov xatirə turnirinə yekun vurulub. Güləşçilərimiz turnirdə ümumilikdə 9 medala sahib çıxıblar. Azərbaycanın kişi sərbəst güləşçilərdən ibarət yığma komandası ilin ilk yarışında 8 medal qazanıb. Turnirdə baş məşqçi Namiq Abdullayev və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında 12 pəhləvan çıxış edib. Medalsız qalan 4 güləşçidən 3-ü zədələndiyi üçün mübarizəni sonadək davam etdirə bilməyib.

Cəbrayıl Hacıyev (74 kq), Abubakr Abakarov (86 kq) və Məhəmmədxan Məhəmmədov (97 kq) qızıl, Turan Bayramov (74 kq) gümüş, Əliabbas Rzazadə (57 kq), Orxan Abasov (86 kq), Osman Nurməhəmmədov (92 kq) və Rahid Həmidli (125 kq) bürünc medal qazanıb. A.Abakarov həm də turnirin ən yaxşı sərbəst güləşçisi mükafatına sahib çıxıb.

Bundan başqa, qadın güləşçilərdən Elis Manolova (65 kq) bürünc medal əldə edib.

Qeyd edək ki, Azərbaycan millisi üçün növbəti sınaq fevralın 24-27-də Türkiyənin İstanbul şəhərində keçiriləcək ilin ilk reytinq turniri olacaq.

## Azərbaycan birinciliyi başa çatıb

Gənc boksçular arasında Azərbaycan birinciliyinə yekun vurulub. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 50 komandanın 176 boksçusu qüvvəsini sınayıb. Altı gün davam edən turnirdə 13 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib. Boks Mərkəzində təşkil olunan final döyüşlərini Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayev də izləyib. Federasiya prezidenti 86 kq çəki dərəcəsində ilk 3 yerin sahibini və birinciliyin ən yaxşı boksçusu Fətəli İsmayılovu mükafatlandırıb.

Həlledici döyüşlərdə qalib gələn Kənan Babayev, Amin Məmmədzadə, Kamil Babayev, Arif Bayramov, Aslan Quliyev, Zaur Qəhrəmanov, Səid Abdullayev, Daniel Xolostenko, Ənvər Babayev, Sərxan Budaqov, Fətəli İsmayılov, Məmməd Quliyev və Səbuhi Əlizadə çempion tituluna sahib olublar.

Turnirin komanda hesabında "Təhsil" Respublika İdman Mərkəzi (75 xal) birinci yeri tutub. İkinci pilləyə "Neftçi" idman klubu (24) yiyələndiyi halda, üçüncü yerə Daxili İşlər Nazirliyinin idman cəmiyyəti (12) sahib çıxıb.

Çempionatda ən yaxşı boksçu adına Fətəli İsmayılov layiq görülüb. Anar Nağdıyevlə Rövşən Qədirov ən yaxşı hakim, Elbrus Rzayev isə ən yaxşı məşqçi adına sahib olub.

Qeyd edək ki, mükafatçılar yığmanın heyətinə cəlb olunacaq və beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

# Xocalı soyqırımı bəşər tarixinin ən qanlı hadisələrindən biridir

**1992**-ci ilin 26 fevral tarixi Xocalı şəhərində dünyada misli görünməyən dəhşətli bir vəhşiliklə təqvimə düşdü. Ermənistan silahlı birləşmələri, Dağlıq Qarabağdakı erməni yaraqlıları, habelə sovet ordusunun 366-cı motoatıcı alayı Xocalı şəhərini sakinləri ilə birlikdə gülləbaran edərək, insanlığa sığmayan soyqırım aktını törədiblər. Cəmi bir neçə saat ərzində 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca milli mənsəyinə görə qəddarcasına, dözülməz işgəncələr verilməklə öldürülüb, 487 nəfərə ağır xəsarət yetirilib. 1275 sakin-köməksiz qocalar, uşaqlar, qadınlar girov götürülərək zülmə, təhqirə məruz qoyulub. Erməni qəsbkarları azərbaycanlıları qətlə yetirmək üçün hətta faşistlərin belə istifadə etmədikləri ən qəddar, tükürpədici üsullardan istifadə ediblər. Xocalıda mülki əhalinin planlı şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də məhz budur ki, həmin gün əhalinin zorakılıqdan qaçıb qurtarmaq istəyən hissələri əvvəlcədən xüsusi hazırlanmış pusqularda gizlənən ermənilər tərəfindən güllələniblər. Onların heç birinə aman verilməyib. Xocalıdan çıxan dinc əhalinin Naxçıvanik kəndi ərazisində pulemyot, avtomat və digər silahlardan gülləbaran edilməsi faktı bunu bir daha təsdiqləyir. Bütün bunlar ermənilərin 30 il öncə Xocalı şəhərində törətdikləri qeyri-insani hərəkətlərin kökündə məhz genosid soyqırım niyyətinin dayandığını aşkar surətdə üzə çıxarır. Erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli-dini zəmində son nəfərədək qətlə yetirmək olub. Ermənilər beynəlxalq humanitar hüquqda yolverilməz sayılan soyqırım cinayətini məqsədli şəkildə, bilərəkdən həyata keçirərək, misli görünməmiş qətllər törədiblər. Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırım cinayəti kimi tanınması üçün kifayət qədər ciddi əsaslar verir. Ümumiyyətlə, Nürnberq Hərbi Tribunalının Nizamnaməsində beynəlxalq cinayətlərin nədən ibarət olduğu göstərilib. Orada soyqırım cinayəti insanlıq əleyhinə olan cinayətlər kateqoriyasına aid edilib. BMT-nin “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” 9 dekabr 1948-ci il tarixli konvensiyasında isə soyqırım cinayətinin mahiyyəti tam əksini tapıb. Beynəlxalq hüquqa görə soyqırım sülh və bəşəriyyət əleyhinə yönələn əməl olmaqla müharibə cinayəti sayılır. Soyqırım hər hansı milli, irqi, etnik və dini əlamətlərinə görə fərqlənən xüsusi bir qrupun tamamilə və ya qismən məhv edilməsinə yönəlmiş aşağıdakı hərəkətlərə deyilir: həmin qrupun üzvlərinin öldürülməsi; onların şikəst edilməsi, onlara bədən xəsarəti, yaxud əqli pozğunluq yetirilməsi; hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan şəraitin yaradılması; azyaşlı uşaqların bir insan qrupundan alınıb başqasına verilməsi. Bu hallardan hər hansı birinin mövcudluğu hadisənin soyqırım hesab olunması üçün kifayət edir. Bu meyarlar baxımından Xocalı faciəsi soyqırım cinayəti kimi qiymətləndirilməlidir.

Soyqırım beynəlxalq hüququn qəbul edilmiş ümumi pirinsip və normalarının, habelə insan hüquq və azadlıqlarının kobud surətdə pozulmasıdır. Soyqırımın əsas ictimai təhlükəliliyi ondan ibarətdir ki, bu cinayətin törədilməsi nəticəsində ayrıca mədəniyyəti, adətləri, ənənələri, bir sözlə, yaşam tərzi olan milli, etnik, irqi və ya dini qrup tamamilə və ya qismən öz mövcudluğunu itirə bilər. Xocalı soyqırımı ilə bağlı aparılmış istintaqla müəyyən edilmişdir ki, bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin “Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” 9 dekabr 1948-ci il tarixli konvensiyasında və “Azərbaycan Respublikası Cinayət Məcəlləsi”nin 103-cü maddəsində nəzərdə tutulmuş soyqırım cinayətinin tərkibi var. Cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Ermənistanın hərbi birləşmələri dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına riayət etməyiblər. Xocalı faciəsi zamanı mülki əhalinin qorunması haqqında Cenevrə konvensiyalarında nəzərdə tutulan tələblər kobud şəkildə pozulub. Bəli, Xocalı hadisəsi soyqırımdır, burada törədilən vəhşiliklər belə deməyə əsas verir.





## Dünya mətbuatı Xocalı faciəsinə biganə qalmayıb

Xocalıda baş verən qanlı faciə haqqında dünyada ilk məlumat görkəmli Azərbaycan teleoperatoru Çingiz Mustafayevin çəkdiyi film sayəsində yayıldı. Kamera qulaqları kəsilən uşaqları, başları soyulan kişiləri lentə ala bilmişdi. Erməni quldurları qoca qadının sifətinin sağ tərəfinin dərisini kəsib çıxarmışdılar. Bütün cəsədlərin üzərində zorakılıq əlamətləri var idi. Təsadüfi deyil ki, erməni terrorçuları tərəfindən Azərbaycan şəhəri Xocalının yer üzündən silinməsi ABŞ-da ilin ən dəhşətli faciəsi kimi tanınmışdı. Faciənin icraçılarından biri olan 366-cı motoatıcı alay Rusiyaya çağırılaraq ləğv edildi. Lakin onun insanlığa sığmayan vəhşiliklər törədən zabitlərindən bir nəfər də cinayət məsuliyyətinə cəlb olunmadı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı faciəsinin 10 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində deyilir: “... bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli terror aktlarından biri kimi daxil oldu... Azərbaycan xalqı və hakimiyyəti qarşısında dünya dövlətlərinə, parlamentlərinə və ictimaiyyətinə Xocalı soyqırımı və ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında bütün həqiqəti çatdırmaq vəzifəsi durur. Bu, bizim Xocalı soyqırımının qurbanları qarşısında vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, bu faciənin beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının cəzalandırılması ümumilikdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların bir daha təkrar olunmamasının vacib şərtidir”.

Xocalıda baş verən qətllər xarici kütləvi informasiya vasitələrinin diqqətindən kənarda qalmayıb. Dünyanın ən nüfuzlu KİV-lərində Xocalı şəhərində erməni terrorçuları və quldur birləşmələri tərəfindən törədilən soyqırım faktını təsdiq edən faktlar yer alıb.

**“Vashington Post”** qəzeti: “Dağlıq Qarabağ qurbanları Azərbaycan şəhərində torpağa tapşırıldılar. Qaçqınlar deyirlər ki, ermənilərin hücumu nəticəsində yüzlərlə insan qətlə yetirilib. Həlak olan 7 nəfərin cəsədi bu gün göstərildi, onlardan üçü qadın, ikisi isə uşaq idi. 120 qaçqın Ağdam hospitalında yerləşdirilib, onlardan bir çoxunun bədənində deşilmiş yara izləri var”.

**“Times”** qəzeti: “Erməni əsgərləri yüzlərlə qaçqın ailəsini qırdılar. Sağ qalanlar məlumat verirlər ki, erməni əsgərləri əksəriyyəti uşaq və qadın olan 450-dən çox azərbaycanlını qətlə yetiriblər. Yüzlərlə, bəlkə də mindən çox insan itkin düşüb. “Onlar güllələyirdilər, güllələyirdilər, güllələyirdilər” - bu sözləri Xocalıdan qaçan digər qadın və uşaqlarla birgə, Ağdama gələn Raziyə Aslanova da söyləyirdi. O deyirdi ki, əri Kənan və oğlu qətlə yetiriliblər, qızı isə itkin düşüb.”

**“Times”** qəzeti: “Qırğının üstü açıldı. Həlak olmuş 60-dan çox insanın, o cümlədən qadın və uşaqların cəsədi Dağlıq Qarabağın təpəliklərindəki yamaclarda aşkar olundu. Bu, azərbaycanlıların erməni hərbçiləri tərəfindən qırğına məruz qalması faktını təsdiqlədi. Yüzlərlə qaçqın bu günə kimi axtarışdadır”.

**“Times”** qəzeti: “Çoxları şikəst edilmişdi, bir qız uşağının isə yalnız başı qalmışdı.”

**“İzvestiya”** qəzeti: “Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qoca qadının isə sifətinin bir hissəsi kəsilib götürülmüşdü. Kişilərin başının dərisi soyulmuşdu.”

**“Sunday Times”** qəzeti: “Tomas Qolts erməni əsgərləri tərəfindən törədilmiş qırğın barədə məlumat verən ilk reportyor idi. Onun hazırladığı reportajda deyilir: “Xocalı Azərbaycanın münbit şəhərlərindən biri idi. Bura torpağı becərən və ev quşları saxlayan azı min azərbaycanlının yaşadığı bir yurd idi. Keçən həftə bu şəhər yer üzündən silindi”.

**“Financial Times”** qəzeti: “Ermənilər Ağdam tərəfə istiqamətlənən qaçqınlar dəstəsini güllələdilər. Azərbaycanlılar 1200-ə yaxın cəsəd saydılar. Livandan olan kinooperator onun ölkəsinin varlı daşnak ictimaiyyəti tərəfindən Qarabağa muzdlu döyüşçülər və silah göndərildiyini təsdiqlədi.

**“İzvestiya”** qəzeti: “Mayor Leonid Kravets: “Mən öz gözlərimlə təpəlikdə yüzə yaxın cəsəd gördüm. Bir oğlan uşağının başı yox idi. Hər yerdə xüsusi amansızlıqla qətlə yetirilən qadın, uşaq, qoca meyidləri var idi”.

**“Financial Times”** qəzeti: “General Polyakov bildirdi ki, 366-cı alayın erməni milliyyətindən olan 103 qulluqçusu Dağlıq Qarabağda qaldı.”

**“La Mond”** qəzeti: “Ağdamda olan əcnəbi jurnalistlər qətlə yetirilən qadın və uşaqların içində başının dərisi soyulmuş 3 nəfər gördülər. Bu, Azərbaycan təbliğatı deyil, reallıqdır”

**“Valer actual”** jurnalı: “Bu muxtar regionda erməni hərbi birləşmələri Yaxın Şərqdən olanlarla birlikdə ən müasir hərbi texnikaya, eyni zamanda, vertolyotlara malikdirlər. ASALA Suriya və Livanda yerləşən hərbi düşərgələr və silah anbarları ilə təchiz edilib. Ermənilər 100-dən çox müsəlman yaşayış məntəqəsində qırğın törədərək Qarabağ Azərbaycanlılarını məhv etdilər.”

**“Krua l’Eveneman”** jurnalı: “Ermənilər Xocalıya hücuma keçdilər. Bütün dünya eybəcərləşdirilmiş insan cəsədlərini gördü. Xocalıda mindən çox azərbaycanlının qətlə yetirildiyi deyilir”

Bəli, dünya mediası Xocalıda törədilən vəhşiliklərə biganə qala bilmədi.

Azərbaycan dövləti Xocalı faciəsini bütün dünyaya tanıtdırmaq üçün müntəzəm iş aparır.

Hər il Prezident Administrasiyası tərəfindən xüsusi tədbirlər proqramı təsdiqlənir və icra edilir. Bu baxımdan, Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqda faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir.

## Faciənin günahsız qurbanlarının qisası alındı

Bu gün hər bir azərbaycanlı bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığı tarixi Qələbənin sevincini yaşayır. Qəhrəman ordumuz Ali Baş Komandanımızın əmri ilə 2020-ci il sentyabrın 27-də əks-hücuma keçdi və “Dəmir yumruq” əməliyyatı ilə düşməni darmadağın edərək doğma Qarabağımızı 28 illik əsarətdən xilas etdi. Şanlı Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının icraçılarından bir neçəsi məhv edildi, bu dəhşətli faciənin günahsız qurbanlarının qisası alındı. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

*Dilqəm Quliyev,*
*pedaqogika üzrə elmlər doktoru, professor*





# Pekində skandinaviyalılar bir daha favorit olduğunu təsdiqlədilər

## *“Ağ Olimpiada”da heç bir komanda bu qədər çempionluq yaşamayıb*

**Pekin-2022 XXIV Qış Olimpiya Oyunları başa çatıb. Olimpiadanın sonuncu günündə qadınlar arasında 30 kilometr məsafəyə xizək yarışı, dağ xizəyi, bobsley, körlinq və hokkey üzrə yarışlar keçirilib.**

Pekin-2022 Qış Olimpiya Oyunlarında birinci yeri Norveç komandası tutub. Bu ölkənin idmançıları 16 qızıl, 8 gümüş, 13 bürünc medal qazanıblar. Norveç qızıl medalların sayına görə Qış Olimpiya Oyunlarının tarixində yeni rekorda imza atıb. İndiyədək “Ağ Olimpiada”da heç bir komanda bu qədər çempionluq sevinci yaşamayıb. Norveç Qış Olimpiya Oyunları tarixində ən çox qızıl, o cümlədən ən çox medal qazanan ölkədir.

İkinci yeri 12 qızıl, 10 gümüş və 5 bürünc medalla Almaniya tutub. Olimpiadaya ev sahibliyi edən Çin idmançılarının hesabında 9 qızıl, 4 gümüş və 2 bürünc medal var. Belə ki, Çin idmançıları indiyədək Qış Olimpiya Oyunlarında bu cür yüksək nəticə göstərməyiblər.

Pekində və yaxınlıqdakı Canciakou şəhərində 13 arenada təşkil olunan yarışlarda 29 ölkənin atletləri 15 idman növü üzrə 109 medal qazanıblar. Çin paytaxtı həm Yay, həm də Qış Olimpiya Oyunlarına ev sahibliyi edən ilk şəhər olub. Pekin-2008 Yay Olimpiya Oyunlarında istifadə olunmuş 5 idman arenasında Qış Olimpiya Oyunlarının yarış və tədbirləri keçirilib. Pekindəki məşhur “Quş yuvası” stadionu isə idman tarixinə yay və qış Olimpiya Oyunlarının açılış və bağlanış mərasimlərinin keçirildiyi məkan kimi düşüb.

Pekin-2022 həm də COVID-19 pandemiyası dövründə keçirildiyindən Olimpiya Oyunlarında bəzi məhdudiyyət və qadağalar tətbiq olunub. Olimpiadaya xaricdən tamaşaçı qəbul edilməyib, yerli tamaşaçılara isə bilet satılmayıb. Məhdud sayda yerli tamaşaçı isə dəvətnamə əsasında arenalarda yarışları izləyib. Yanvarın 23-dən etibarən “qapalı sistem” tətbiq olunduğundan idmançıların və heyət üzvlərinin, habelə yarışlara cəlb olunan yerli heyətin Olimpiya kəndləri və yarış məkanlarından kənara çıxmasına icazə verilməyib. Ümumilikdə Olimpiya Oyunları üçün Çinə 13 min 654 nəfər, o cümlədən 6 min 198 idmançı və komanda üzvü gəlib. Pekin-2022 ilə əlaqədar 1 milyon 794 min PZR (polimerazalı zəncir reaksiyası) analizi götürülüb. Nəticədə 437 nəfərin, o cümlədən 185 idmançı və komanda üzvünün COVID-19 infeksiyasına yoluxduğu aşkarlanıb.

**15 fevral**

**Biatlon, Estafet 4x7,5 (Kişilər)**

1. Norveç
2. Fransa
3. ROK

**Bobsley, cütlük kişilər (Kişilər)**

1. Torsten Marqis, Françesko Fridrix (Almaniya)
2. Florian Bauer, Yohannes Loksner (Almaniya)
3. Mattias Zommer, Kristof Xafer (Almaniya)

**Dağ xizəyi, sürətli eniş (Qadınlar)**

1. Korin Zuter (İsveçrə)
2. Sofia Qadçia (İtaliya)
3. Nadya Delaqo (İtaliya)

**Konkisürmə, izləmələr üzrə komanda yürüşü (Qadınlar)**

1. Kanada
2. Yaponiya
3. Niderland

**Fristayl, sloupstayl (Qadınlar)**

1. Matilda Qremo (İsveçrə)
2. Eylin Aylin Qu (Çin)
3. Kelli Sildaru (Estoniya)

**16 fevral**

**Biatlon, estafet 4x6 km (Qadınlar)**

1. İsveç
2. ROK
3. Almaniya

**Fristayl, sloupstayl (Kişilər)**

1. Aleks Holl (ABŞ)
2. Nikolas Qepper (ABŞ)
3. Yesper Tyader (İsveç)

**Şort-trek, 1500 m (Qadınlar)**

1. Yon-Min Çxoy (Cənubi Koreya)
2. Ariana Fontana (İtaliya)
3. Syuzanne Shyultinq (Fransa)



**Konkisürmə, izləmələr üzrə komanda yürüşü (Kişilər)**

1. Norveç
2. ROK
3. ABŞ

**Xizək ikinövçülüyü, böyük tramplin**

1. Yorgen Qrobak (Norveç)
2. Yens Oftebro (Norveç)
3. Akito Batabe (Yaponiya)

**Snoubord, biq-eyr (Qadınlar)**

1. Anna Qasser (Avstriya)
2. Zoi Sinnot-Sadovski (Yeni Zelandiya)
3. Kokomo Murase (Yaponiya)

**Snoubord biq-eyr (Kişilər)**

1. İmin Su (Çin)
2. Mons Roysland (Norveç)
3. Maks Pappo (Kanada)

**Dağ xizəyi, slalom (Kişilər)**

1. Kleman Noel (Fransa)
2. Yohannes Ştrols (Avstriya)
3. Sebastyan Foss-Solevaq (Norveç)

**Xizək, komanda, klassik üsul (Qadınlar)**

1. Viktoriya Karl, Katarina Jennik (Almaniya)
2. Maya Dalkvist, Yohanna Sundlinq (İsveç)
3. Natalya Nepryaeva, Yuliya Stupak (ROK)

**Xizək, komanda, klassik üsul (Kişilər)**

1. Yohannes Klebo, Valnes Erik (Norveç)
2. İyvo Niskannen, Yoni Miyaki (Finlandiya)
3. Aleksandr Bolşunov, Aleksandr Terentev (ROK)

**Fristayl, akrobatika (Kişilər)**

1. Quanpu Çi (Çin)
2. Aleksandr Abramenko (Ukrayna)
3. İlya Burov (ROK)

**Şort-trek, 5000 m estafet (Kişilər)**

1. Kanada
2. Cənubi Koreya
3. İtaliya

**17 fevral**

**Dağ xizəyi, kombinasiya (Qadınlar)**

1. Mişel Qizin (İsveçrə)
2. Vendi Holdner (İsveçrə)
3. Federika Brinyon (İtaliya)

**Konkisürmə, 1000 m (Qadınlar)**

1. Miho Takaqi (Yaponiya)
2. Yutta Lerdam (Niderland)
3. Brittani Boui (ABŞ)

**Xizək ikinövçülüyü, komanda birinciliyi**

1. Norveç
2. Almaniya
3. Yaponiya

*(ardı 5-ci səhifədə)*





# Pekində skandinaviyalılar bir daha favorit olduğunu təsdiqlədilər

## *“Ağ Olimpiada”da heç bir komanda bu qədər çempionluq yaşamayıb*









*(əvvəli 4-cü səhifədə)*

**Fiqurlu konkisürmə (Qadınlar)**

1. Anna Şerbakova (ROK)
2. Aleksandra Trusova (ROK)
3. Kaori Sakamoto (Yaponiya)

**Fistayl, ski-kross (Qadınlar)**

1. Sandra Neslund (İsveç)
2. Mariel Tompson (Kanada)
3. Daniela Mayer (Almaniya)

**Hokkey (Qadınlar)**

1. Kanada
2. ABŞ
3. Finlandiya

**18 fevral**

**Biatlon, mass-start, 12,5 km (Qadınlar)**

1. Jüstin Brezaz (Fransa)
2. Tiril Ekhoff (Norveç)
3. Marte Royseland (Norveç)

**Biatlon, mass-start 15 km (Kişilər)**

1. Yohannes Byö (Norveç)
2. Martin Ponsiluoma (İsveç)
3. Syastad-Vetle Kristiansen (Norveç)

**Konkisürmə, 1000 m (Kişilər)**

1. Tomas Krol (Niderland)
2. Loran Dyubrey (Kanada)
3. Havard Lorensen (Norveç)

**Fistayl, ski-kross (Kişilər)**

1. Rayan Reqeç (İsveçrə)
2. Aleks Fiva (İsveçrə)
3. Sergey Ridzik (ROK)

**Fistayl, hafpayp (Qadınlar)**

1. Eylin Aylin Qu (Çin)
2. Keysi Şarp (Kanada)
3. Reyçel Karker (Kanada)

**19 fevral**

**Bobsley, cütlük (Qadınlar)**

1. Laura Nolte (Almaniya)
2. Mariama Yamanka (Almaniya)
3. İlana Meyers (ABŞ)

**Kerlinq (Kişilər)**

1. İsveç
2. Böyük Britaniya
3. Kanada

**Konkisürmə, mass-start (Qadınlar)**

1. İren Shauten (Niderland)
2. İveyni Blonden (Kanada)
3. Françeska Lollobridcida (İtaliya)

**Konkisürmə, mass-start (Kişilər)**

1. Bart Svinqs (Almaniya)
2. Von-Çjyo Çun (Cənubi Koreya)
3. Xun-Sın Li (Cənubi Koreya)

**Xizək, mass-start, sərbəst üsul (Kişilər)**

1. Aleksandr Bolşunov (ROK)
2. İvan Yakimuşkin (ROK)
3. Simen Kryuqer (Norveç)

**Fiqurlu konkisürmə, cütlük**

1. Xan Çun, Suy Vyonszin (Çin)
2. Vladimir Morozov, Yevgeniya Tarasova (ROK)
3. Aleksandr Qallyamov, Anastasiya Mişina (ROK)

**Fristayl, hafpayp (Kişilər)**

1. Niko Porteus (Yeni Zelandiya)
2. Devid Uayz (ABŞ)
3. Aleks Ferreyra (ABŞ)

**20 fevral**

**Bobsley, dördlük (Kişilər)**

1. Kandi Bauer, Aleksandr Şuller (Almaniya)
2. Florian Bauer, Kristian Rasp (Almaniya)
3. Rayan Zommer, Kemeron Stonus (Kanada)

**Dağ xizəyi, komanda yarışları**

1. Avstriya
2. Almaniya
3. Norveç

**Körlinq (Qadınlar)**

1. Böyük Britaniya
2. Yaponiya
3. İsveç

**Xizək, mass-start 30 km, sərbəst üsul (Qadınlar)**

1. Tereza Yoxauq (Norveç)
2. Cessika Diqqins (ABŞ)
3. Kerttu Niskanen (Finlandiya)

**Hokkey (Kişilər)**

1. Finlandiya
2. ROK
3. Slovakiya











# ADBTİA-da şəhid valideynləri ilə görüş keçirilib

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında şəhid valideynləri ilə görüş keçirilib. Görüş zamanı akademiyanın məzunu şəhid Pərvin Əlizadənin valideynlərinə akademiyada onun adı verilmiş auditoriya haqqında məlumat verilib.

Bildirilib ki, bu il akademiyada istifadəyə verilən yeni, 3 mərtəbəli korpusda 14 şəhid məzunların əziz xatirəsini əbədiləşdirmək və ehtiram əlaməti olaraq, onların hər birinin adı auditoriyalara verilib. Hər bir şəhid məzunun adını daşıyan auditoriyanın qapısına həmin şəhidin adı, soyadı yazılan lövhə vurulub. Həmçinin şəhid məzunların adlarına xüsusi təqaüdlər də təsis edilib.

Daha sonra akademiyanın girişində quraşdırılan elektron lövhədə hər gün fasiləsiz olaraq nümayiş olunan şəhidlər haqqındakı slayda baxılıb.

Konfrans zalında davam edən görüşdə prorektor Rizvan Əliyev çıxış edərək, akademiyanın Vətən müharibəsi zamanı gördüyü işlər, şəhid məzunlar və ASAPES-in elmi-tədris laboratoriyasında müalicə alan qazilər haqqında danışıb, videoçarx göstərilib.

Sonda, şəhid məzun Pərvin Əlizadənin valideynlərinə xatirə olaraq akademiyada keçirilən “Zəfər” sərgisində nümayiş olunmuş portret təqdim edilib.



Məlumat üçün bildirək ki, Pərvin Vüqar oğlu Əlizadə 1993-cü il sentyabrın 11-də Bərdə rayonunun Qazaxlar kəndində anadan olub. Əslən Laçın rayonunun Minkənd kəndindən olan şəhidimiz Bərdə rayonu B.E.Aslanov adına 2 saylı orta məktəbi bitirib.

Pərvin Əlizadə “Laçın” kikboksinq klubunun idmançısı olub. Tbilisi şəhərində keçirilən yarışda Zaqafqaziya çempionu, dəfələrlə respublika çempionatı və birinciliklərində fəxri mükafatlara layiq görülüb.

Pərvin Əlizadə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının “İdman təkmübarizliyi” fakültəsinin məzunu olub. Azərbaycan Ordusunun leytenantı olan Pərvin Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib.

Pərvin Əlizadə 2020-ci il oktyabrın 20-də Ağdərə istiqamətindəki döyüşlərdə şəhid olub. P.Əlizadə Bərdə rayonunun Birinci Qazaxlar kəndində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Pərvin Əlizadə ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib.

# Ölkəmizdə reqbi idman növünün inkişaf perspektivləri müzakirə olunub

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) və Azərbaycan Reqbi Federasiyasının (ARF) rəhbərlikləri arasında görüş olub. Görüşdə Komitənin prezidenti İlqar Rəhimov, baş katib Kamal Məmmədov, ARF-in prezidenti Elşən Abbasov, birinci vitse-prezident Elvar Osmanov, vitse-prezident Müşfiq Cəfərov, baş katib Samirə Allahverdiyeva və digərləri iştirak ediblər.

Qonaqları salamlayan AMPK-nın prezidenti İ.Rəhimov ölkəmizdə Paralimpiya hərəkatının inkişafı, əldə olunan nailiyyətlər, idmançılarımızın Tokio-2020 Yay Paralimpiya Oyunlarında uğurlu çıxışı barədə məlumat verib.

İ.Rəhimov qeyd edib ki, ölkəmizdə Paralimpiya tarixində ilk dəfə Azərbaycan Qış Paralimpiya Oyunlarında təmsil olunacaq. Bu, Azərbaycanda idmana göstərilən dövlət qayğısının bariz nümunəsidir. Qarşıda bizi daha ciddi sınaqlar gözləyir. İnanıram ki, Tokioda əldə olunan uğuru paralimpiyaçılarımız Paris-2024 Yay Paralimpiya Oyunlarında da davam etdirəcəklər.




ARF-in prezidenti E.Abbasov idmanın bu növünün ölkəmizdə inkişaf etdirilməsi, kütləviləşməsi və təbliği istiqamətində görülən işlər barədə məlumat verib. Dövlətimizin başçısı İlham Əliyevin yürütdüyü uğurlu idman siyasətindən danışan federasiya rəsmisi qeyd edib ki, reqbi dünyada nüfuzlu idman növlərindən biri hesab olunur. Ölkəmizdə idmanın bu növünün inkişaf etdirilməsini qarşıya məqsəd qoymuşuq. Paytaxtda və regionlarda reqbi klubları fəaliyyət göstərir. Reqbinin kütləviləşməsi istiqamətində Bakıda və regionlarda mütəmadi görüşlər təşkil olunur, mütəxəssislər üçün təlimlər keçirilir. Əsas hədəf irimiqyaslı turnirlərdə iştirak etmək və mükafatçılar sırasında yer almaqdır.

Görüşdə ölkəmizdə əlil arabasında reqbi idmanının inkişaf perspektivləri müzakirə olunub.

Sonda hər iki qurum arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Şəhid Mahir Mirzəyevin xatirəsinə həsr olunan yarışa yekun vurulub

Nərimanov Rayon Gənclər və İdman İdarəsi tərəfindən rayonun 212 saylı tam orta məktəbinin idman zalında Aprel döyüşləri şəhidi Mahir Mirzəyevin xatirəsinə həsr edilmiş oğlanlar və qızlar arasında basketbol üzrə yarış keçirilib. Yarışda oğlanlar arasında 82 saylı tam orta məktəbin komandası birinci yeri tutub. Qızlar arasında keçirilən yarışda isə birinci yerə 193 saylı tam orta məktəbin komandası sahib olub.

Yarışın keçirilməsində məqsəd Aprel döyüşlərində şəhid olmuş Mahir Mirzəyevin xatirəsini yad etmək, məktəbliləri basketbol idman növünə cəlb edərək bu idman növünü daha da inkişaf etdirmək, onların sağlamlıqlarının qorunmasını təmin etməkdir.

Qalib komandalar idarə tərəfindən müvafiq dərəcəli diplom və medallar ilə təltif olunublar. Sonda isə şəhidin atasına xatirə diplomu və Azərbaycan Respublikasının Dövlət Bayrağı təqdim edilib.

# Millimizin rəqibləri müəyyənləşdi

İyirmi yaşadək basketbolçular arasında Avropa çempionatının püşkü atılıb. C divizionunda mübarizə aparacaq Azərbaycan yığması B qrupunda Ermənistan, Cəbəllütariq, Moldova və Lüksemburqa rəqib olub. Qeyd edək ki, San-Marinonun Serravalle şəhərində təşkil olunacaq turnir iyulun 24-31-də keçiriləcək.

# Şahmat üzrə Azərbaycan çempionu adına sahib çıxdı

Naxçıvanda kişi şahmatçılar arasında Azərbaycan çempionatına yekun vurulub. Finalda Misrətdin İsgəndərova qalib gələn Məhəmməd Muradlı qızıl medal qazanıb. M.İsgəndərov gümüş medalla kifayətlənib. Üçüncü yer uğrunda görüşün ikinci oyununda Vasif Durarbəyli Aydın Süleymanlı üzərində ikinci qələbəsini qazanıb və Azərbaycan çempionatının bürünc mükafatçısı olub. Süleymanlı 4-cü yeri tutub.

Qeyd edək ki, çempionatın ümumi mükafat fondu 22 min manat olub. Çempion 8 min manat qazanıb.

# Kubok turnirində ikinci mərhələ başa çatıb

Şose velosipedi üzrə Azərbaycan Kuboku uğrunda turnirin ikinci mərhələsinə yekun vurulub. Yarışda müxtəlif klubların bütün yaş kateqoriyaları üzrə 60-a yaxın idmançısı iştirak edib.

Reqlamentə əsasən, yarışın birinci günündə idmançılar 14 kilometr məsafəyə fərdi ötüşmədə mübarizə aparıblar. Növbəti gün isə velosipedçilər yaş kateqoriyalarına uyğun olaraq 32 və 64 kilometr məsafələrə qrup ötüşməsində qalibləri müəyyən ediblər.

Turnirdə 15 yaşadək qızlar arasında Məryəm Əfqanzadə həm fərdi, həm də qrup ötüşməsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 17 yaşadək qızların mübarizəsində İradə Əbdürəhmanova fərdi, Ayan Məmmədzadə isə qrup ötüşməsində qalib olub. Bu yaş kateqoriyasında çıxış edən oğlanlar arasında Tamerlan Vitovski və Ravi Rzayev müvafiq olaraq fərdi və qrup ötüşməsində qızıl medala layiq görülüblər.

Gənc oğlanlar və qızlar arasında Kamran Mirzəxanov və Diana Sidorenko, U23/Elit yaş kateqoriyasında isə Musa Mikayılzadə və Lalə Əbdürəhmanova həm fərdi, həm də qrup ötüşməsində bütün rəqiblərindən güclü olublar.

Qaliblərə mükafatları Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev, birinci vitse-prezident Sahib Ələkbərov, vitse-prezident Robert Eyyubov və federasiyanın Nəzarət-Təftiş Komissiyasının sədri Fərid Haqverdi təqdim ediblər.

# Ən güclü stolüstü tennisçilərin adları müəyyənləşib

“Şüa” İdman-Sağlamlıq kompleksində Gənclər və İdman Nazirliyinin və Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə stolüstü tennis üzrə ölkə çempionatı keçirilib. Böyüklər arasında təşkil olunan çempionatda stolüstü tennisçilər komanda, şəxsi, qoşa və qarışıq qoşa yarışlarında qüvvələrini sınayıblar. Dörd gün davam edən çempionatda Bakı şəhəri ilə yanaşı, Sumqayıt, Şəki, Qax, Balakən, Gəncə, Qusar, Salyan, Şabran, Şirvan və Gədəbəydən olan stolüstü tennisçilər də yarışıblar.



Turnirin yekun nəticələrinə görə, komanda yarışında qadınlar arasında “Sumqayıt -2”, kişilərin yarışında “Bakı-1” komandaları birinci yerləri tutublar.

Qoşa yarışlarda Məryəm İmanova - Billurə Eminova cütlüyü qadınlar, Emin Məmmədov - Vəzir Allahverdiyev cütlüyü isə kişilərin yarışında qalib olublar.

Qarışıq qoşa yarışlarda Əliverdi Şahgəldiyev - Aylin Əsgərova cütlüyü ən yüksək nəticə ilə fərqləniblər. Şəxsi yarışlarda isə qadınlar arasında Rüfət Əliyeva, kişilərin yarışında Emin Məmmədov birinci yeri tutub.

Sonda qalib və mükafatçılar təltif ediliblər.

# Azərbaycan Qran-Prisi üçün bilet satışına start verilir

Bu gündən etibarən Formula 1 Azərbaycan Qran-Prisi üçün bilet satışına start verilir. Yarışlar üçün nəzərdə tutulan biletlərin qiyməti yerli azarkeşlər üçün ayaqüstü zonada birgünlük 90-160 manat, üçgünlük tribuna biletləri 280-970 manat, uşaqlar üçün (16 yaşadək) isə 190-690 manat aralığında dəyişir. Bundan əlavə, hər il olduğu kimi, bu il Paddok klubu və xüsusi korporativ yerlər üçün bilet satışı da nəzərdə tutulub.



Qeyd edək ki, 2020-ci ildə COVID-19 səbəbindən təxirə salınmış Formula 1 Azərbaycan Qran-Prisi zamanı alınmış biletlər budəfəki Azərbaycan Qran-Prisi üçün keçərli olacaq.

Builki yarışların formatında qlobal pandemiya fonunda tamaşaçıların təhlükəsizliyini maksimum dərəcədə təmin etmək məqsədilə konsert proqramı nəzərdə tutulmayıb. Lakin ötən illərdə olduğu kimi, bu il də tamaşaçılar üçün müxtəlif əyləncəli proqramlar təşkil olunacaq. Tamaşaçılardan yarış vaxtı ölkədə COVID-19-la bağlı mövcud təhlükəsizlik qaydalarına əməl etmələri tələb olunacaq.

Qeyd edək ki, Formula 1 Azərbaycan Qran-Prisi iyunun 10-12-də keçiriləcək.

# FUTBOL

## “Neftçi” qalib gəlsə də, ilk üçlüyə daxil ola bilmədi



Futbol üzrə Azərbaycan Premyer Liqasında XVI turun oyunları keçirilib. Tura “Qəbələ” - “Səbail” komandalarının oyunu ilə start verilib. Qəbələ şəhər stadionunda oynanılan görüş meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. Matçda hesabı 78-ci dəqiqədə Ülvi İsgəndərov açıb. Görüşün sonunda (90+7) İsnik Alimi hesab arasındakı fərqi iki topa çatdırıb. Bu nəticədən sonra xallarının sayını 29-a çatdıran “Qəbələ” ikinci pillədəki mövqeyini möhkəmləndirib. “Səbail” isə 11 xalla sonuncu - 8-ci sırada qalıb.

Günün ikinci matçında son çempion “Neftçi” klubu “Keşlə”ni qəbul edib. “Bakcell Arena”da keçirilən qarşılaşma “ağ-qaralar”ın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Meydan sahiblərinin ilk qolunu 21-ci dəqiqədə Sezar Meza Kolli vurub. Bundan dörd dəqiqə sonra Voyislav Stankoviç fərqi iki topa çatdırıb. Ramin Nəsirli isə 44-cü dəqiqədə qonaqları növbəti dəfə mərkəzə dəvət edib.



“Keşlə”nin heyətində Felipe Santos 90+3-cü dəqiqədə fərqi azaldıb.

“Neftçi” qələbə sayəsində xallarının sayını 25-ə çatdırıb və 4-cü pillədəki mövqeyini qoruyub. “Keşlə” isə 14 xalla 6-cı sırada qalıb.

Turun son oyununda “Zirə” komandası “Sabah”ı qəbul edib. Zirə İdman Kompleksinin stadionunda oynanılan qarşılaşma meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə başa çatıb. “Qartallar”ın heyətində hər iki qolu Hamidu Keyta vurub. Fransalı hücumçu 63-cü və əsas vaxta əlavə olunmuş 3-cü dəqiqədə fərqlənib. Bu nəticədən sonra xallarını 28-ə çatdıran “Zirə” yenidən 3-cü pilləyə yüksəlib. 20 xalı olan “Sabah” isə 5-ci sırada qalıb.

Qeyd edək ki, turun “Qarabağ” - “Sumqayıt” oyunu mayın 12-nə təxirə salınıb.

## “Qarabağ” “Velodrom”da da qol vura bildi

Azərbaycanın “Qarabağ” klubu UEFA Konfrans Liqasının pley-off mərhələsində ilk oyununu keçirib. Ağdam təmsilçisi tarixi matçda Fransanın “Marsel” klubu ilə qarşılaşıb. “Velodrom” stadionunda təşkil olunan oyun meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Monteneqrolu FIFA referisi Nikola Dabanoviçin idarə etdiyi qarşılaşmada hesabı 41-ci dəqiqədə meydan sahiblərinin hücumçusu Arkadiuş Milik açıb. Cəmi üç dəqiqə sonra A.Milik yenidən fərqlənərək dubla imza atıb. Lakin Ağdam təmsilçiləri 85-ci dəqiqədə vurulan qollardan birinin əvəzini çıxıb. Kadi Borges komandasının ilk qolunu vurub. Lakin Dimitri Payet əsas vaxta əlavə olunmuş 2-ci dəqiqədə qonaqları 3-cü dəfə meydanın mərkəzinə dəvət edib.



Qeyd edək ki, bu komandalar arasında cavab qarşılaşması fevralın 24-də Bakıda keçiriləcək.

UEFA Konfrans Liqasının pley-off mərhələsinin digər görüşlərində aşağıdakı hesablar qeydə alınıb:

PSV (Niderland) - “Makkabi” (Təl-Əviv, İsrail) - 1:0;

“Fənərbağça” (Türkiyə) - “Slaviya” (Praqa, Çexiya) - 2:3;

“Midtülland” (Danimarka) - PAOK (Yunanıstan) - 1:0;

“Rapid” (Vyana, Avstriya) - “Vitess” (Niderland) - 2:1;

“Marsel” (Fransa) - “Qarabağ” (Azərbaycan) - 3:1;

“Lester” (İngiltərə) - “Randers” (Danimarka) - 4:1;

“Seltik” (Şotlandiya) - “Budyo Qlimt” (Norveç) - 1:3;

“Sparta” (Praqa, Çexiya) - “Partizan” (Serbiya) - 0:1.

## Mahir Emrelinin yeni komandası səfərdə “Sevilya”ya məğlub oldu

UEFA Avropa Liqasının pley-off mərhələsində ilk oyunlara yekun vurulub. Azərbaycan millisinin futbolçusu Mahir Emrelinin çıxış etdiyi Xorvatiyanın “Dinamo” (Zaqreb) komandası İspaniyada “Sevilya”nın qonağı olub. Zaqreb təmsilçisi 1:3 hesabı ilə uduzub. M.Emreli görüşün 57-ci dəqiqəsində Deni Yuriçin əvəzinə meydana daxil olub.



“Atalanta” İtaliyada Yunanıstanın “Olimpiakos” klubunu qəbul edib. Oyun meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. “Portu” Portuqaliyada İtaliyanın “Latsio” klubunu eyni hesabla üstələyib.

İspaniyanın “Real Sosyedad” komandası Almaniyada “Leyptsiq”lə bərabərə qalıb - 2:2.

Qeyd edək ki, cavab qarşılaşmaları bir həftə sonra olacaq.

UEFA Avropa Liqasının pley-off mərhələsinin digər görüşlərində aşağıdakı hesablar qeydə alınıb:

“Sevilya” (İspaniya) - “Dinamo” (Zaqreb, Xorvatiya) - 3:1;
“Atalanta” (İtaliya) - “Olimpiakos” (Yunanıstan) - 2:1;
“Leyptsiq” (Almaniya) - “Real Sosyedad” (İspaniya) - 2:2;
“Portu” (Portuqaliya) - “Latsio” (İtaliya) - 2:1;
“Barselona” (İspaniya) - “Napoli” (İtaliya) - 1:1;
“Zenit” (Rusiya) - “Betis” (İspaniya) - 2:3;
“Şerif” (Moldova) - “Braqa” (Portuqaliya) - 2:0;
“Borussiya” (Dortmund, Almaniya) - “Reyncers” (Şotlandiya) - 2:4.

## Reytinq cədvəlində mövqeyimiz dəyişmədi

UEFA futbol üzrə komandaların yeni reytinq siyahısını açıqlayıb. Cədvəldə Azərbaycan komandasının mövqeyi dəyişməyib. Buna “Qarabağ”ın UEFA Konfrans Liqasının pley-off mərhələsinin ilk oyununda Fransada “Marsel”ə 1:3 hesabı ilə uduzması səbəb olub. Azərbaycan yenə 17,000 xalla 26-cı pillədə qərarlaşıb. Əvəzində Şotlandiya (34,500) 9-cu, Danimarka (26,975) 15-ci, Çexiya (26,800) isə 17-ci pilləyə yüksəlib.

Rusiya (34,282) 10-cu, Türkiyə (26,900) 16-cı, Yunanıstan (26,700) və Xorvatiya (26,650) müvafiq olaraq 18-19-cu sıraya geriləyiblər.

## “Qarabağ”ın qapıçısı ən yaxşılar arasında

UEFA Konfrans Liqasının pley-off mərhələsinin ilk oyunlarından sonra ən yaxşı qapıçı qurtarışları açıqlanıb. Yarışın rəsmi tviter hesabında açıqlanan ilk beşlikdə “Qarabağ”ın qapıçısı Luka Quqeşaşvilinin qurtarışı da yer alıb. Gürcüstanlı futbolçu Fransada “Marsel” klubu ilə görüşdə Pape Qeyenin zərbəsini dəf edib.

Siyahıya “Qarabağ”ın hücumçusu İbrahima Vadjinin zərbəsindən sonra komandasını qoldan xilas edən Stiv Mandandanın da adı düşüb.



## Ronaldo və Romario birinci pilləyə şərik oldular

Klub karyerasında ən çox qol vuran futbolçuların siyahısı açıqlanıb. İFFHS-in tərtib etdiyi cədvəldə 500 və daha çox qol vuranlar yer alıb.

Futbol tarixində 15 oyunçu buna nail olub. Dünya rekordu Kriştianu Ronaldo və Romarioya məxsusdur. Onlar hərəyə 689 qol vurublar.

1-2. Kriştianu Ronaldo (Portuqaliya) - 689
1-2. Romario (Braziliya) - 689
3. Yozef Biscan (Avstriya, Bohemiya və Moraviya, Çexoslovakiya) - 688
4. Pele (Braziliya) - 682
5. Lionel Messi (Argentina) - 679
6. Ferens Puşkas (Macarıstan, İspaniya) - 645
7. Cimmi Cons (Şimali İrlandiya) - 635
8. Co Bambrik (Şimali İrlandiya) - 595
9. Eysebio (Portuqaliya) - 578
10. Herd Müller (Almaniya) - 566
11. Qlenn Ferqyuson (Şimali İrlandiya) - 561
12. Cimmi Makqrori (Şotlandiya) - 540



13. Fernando Peyroteo (Portuqaliya) - 539
14. Uve Zeeler (Almaniya) - 508
15. Alfredo Di Stefano (Argentina, İspaniya) - 501



# Dünya idmanı

## Bekhem Ronaldonu okeanın o tayına çağırır

İngiltərənin "Mançester Yunayted" klubunun futbolçusu Kriştianu Ronaldo MLS-dən iki təklif alıb. ABŞ-ın "İnter Mayami" və "Los-Anceles Qelaksi" klubları portuqaliyalı hücumçu ilə müqavilə bağlamaqda maraqlıdır. Klub nümayəndələri artıq Ronaldonun agenti ilə əlaqə saxlayıb.



37 yaşlı forvardın "qırmızı şeytanlar"la müqaviləsi 2023-cü ilin iyununadək nəzərdə tutulub. Bununla belə, Ronaldo Çempionlar Liqasına çıxa bilməyəcəyi təqdirdə, "Mançester Yunayted"i tərk edə bilər.

Qeyd edək ki, "İnter Mayami"nin sahibi İngiltərə millisinin və "Mançester Yunayted"in keçmiş futbolçusu Devid Bekhemdir. Bekhem futbolçu kimi 2007 - 2012-ci illərdə "Los-Anceles Qelaksi"nin formasını geyinib.

## 253 dəfə fərqlənən müdafiəçi

Futbolçu karyerası ərzində ən çox qol vuran müdafiəçilərin adları açıqlanıb. Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) açıqladığı siyahıya Niderland millisinin keçmiş futbolçusu Ronald Kuman başçılıq edir. "Barselona"nın keçmiş futbolçusu 253 dəfə fərqlənməyə müvəffəq olub. İkinci yerdə Argentina yığmasının keçmiş üzvü Daniel Passarella (175 qol), üçüncü sırada isə ispaniyalı Fernando Yerro (170) yer alıb.

Karyerasını davam etdirən oyunçulardan yalnız biri IFFHS-in siyahısına düşə bilib ki, bu da Fransanın PSJ klubunda çıxış edən Serxio Ramosdur. O, 128 qolla 4-cü pillədə qərarlaşıb.



### Üfüqi

**1.** Solt-Leyk-Siti-2002 və Turin-2010 Qış olimpiadalarında Azərbaycanı təmsil edən fiqurlu konkisürən Kristin...**3.** Qış idman növü. **6.** Pxençxan-2018 Qış Olimpidasında çıxış edən dağ xizəkçimiz. **7.** Pekin-2022 Olimpiadasında Azərbaycanı təmsil edən rusiyalı legionerimiz. **8.** Qış idman növü. **9.** Xizəksürmə növü. **10.** Pekin-2022 Qış Olimpiadasında qadınlar arasında qızıl medal qazanan hokkey yığması. **17.** XVII Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. **18.** Qış idman növü.

### Şaquli

**2.** Pekin-2022 Olimpiadasının talismanı "... dun-dun". **4.** Çin paytaxtında yarışlara ev sahibliyi edən arenalardan biri. **5.** Pekin-2022 Olimpiadasında Azərbaycanı təmsil edən rusiyalı qadın legionerimiz. **11.** Pekində qar parkı. **12.** Qış idman növü. **13.** XVI Qış Olimpiya Oyunlarına ev sahibliyi edən şəhər. **14.** Qış idman növü. **15.** Fristaylın növlərindən biri. **16.** Azərbaycanın ilk dəfə iştirak etdiyi Qış Olimpiya Oyunları. **19.** Həm yay, həm də qış Olimpiya oyunlarına ev sahibliyi edən şəhər. **20.** Naqano-1998 Olimpiadasında Azərbaycan komandasının heyətində yer alan idmançı.

## Qalmaqalla yadda qalan boks gecəsi



İngiltərənin "Mançester Siti" klubunun futbolçusu qalmaqallı vəziyyətə düşüb. Fevralın 19-u axşam saatlarında "şəhərlilər"in yarımmüdafiəçisi Fil Foden "Mançester Arena"da keçirilən boks gecəsində iştirak edib. Onu yaxın dostları və qohumları, o cümlədən anası Kler Foden müşayiət edib.

Hadisədən sonra futbolçunun ailəsi ilə arenaya gələn naməlum qonaqlar arasında münaqişə yaranıb. Kişilərin futbolçunun sevgilisi Rebekka Kuku təhqir etdiyi bildirilib. Naməlum şəxslərdən biri Fodenin anasının üzünə zərbə endirib ki, bu da futbolçunun işə qarışmasına səbəb olub.

Qeyd edək ki, Foden bu mövsüm "Mançester Siti"nin heyətində 27 oyuna çıxıb, 9 qol vurub və 6 məhsuldar ötürmə edib.

## Yeni mövsümün yeni bolidləri

Formula 1-də çıxış edən daha 3 komanda yeni mövsüm üçün bolidlərini ictimaiyyətə təqdim edib. "Alfa Romeo" komandası Barselonadakı test yarışlarınadək bolidini trasa çıxarmaq istəməsə də, İsveçrə təmsilçisi Formula 1 həvəskarlarını yarış maşınının şəkilləri ilə tanış edib. C42 bolidinin sükanı arxasına isə komandanın "Mercedes"dən transfer etdiyi Valtteri Bottas əyləşib.



"Uilyams" komandası da eyni tərzdə yeni yarış avtomobilini ictimaiyyət önünə çıxarıb. FW44 adını daşıyacaq yeni bolidi isə Barselonadakı test yarışlarında canlı izləmək olacaq. Yeni yarış maşınının görüntüsündə bəzi dəyişikliklər edilib. Bundan sonra "Uilyams" bolidlərində 1994-cü ildə faciəvi şəkildə həlak olan komandanın sabiq pilotu Ayrton Sennanın xatirəsinə həsr olunan loqotip əks olunmayacaq. Amma komanda yeni sponsoru olan "Duracell" firmasının adını yarış avtomobilinə həkk etdirib.

Formula 1-in aparıcı komandalarından olan "Mercedes" də yeni mövsümdən əvvəl F1 W13 adlı bolidini ictimaiyyətə təqdim edib. Almaniya komandası yeni yarış ilində bolidində ənənəvi gümüşü boyaya üstünlük vermək qərarına gəlib. Yeni reqlamentə əsasən, yarış avtomobillərin görüntüləri və texniki keyfiyyətləri müəyyən dəyişikliklərə uğrayacaq.

Martdan start götürəcək çempionatda komandanın bolidlərini Luis Hamilton və Corc Rassell idarə edəcəklər.

## olimpnews.az - sizin saytınız



Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19